**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## Azərbaycan Türkiyə Iş Adamları Birliyi (ATİB) və Yunanıstan Sahibkarlar Federasiyası (SEV) arasında əməkdaşlıq protokolu imzalandı

**No: 09/26/105**
**12.05.2009**

12 may 2009-cu ildə Bakıda, Azərbaycan Yunanıstan biznes forumu çərçivəsində Azərbaycan Türkiyə İş Adamları Birliyi və Yunanıstan Sahibkarlar Federasiyası (SEV) arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Protokolda göstərilmişdir ki, tərəflər ikitərəfli iqtisadi əlaqələrin gücləndirilməsi və iki ölkə arasındakı biznes münasibətlərinin inkişafı yönündə ortaq maraqları nəzərə alaraq əməkdaşlıq etmək barədə razılığa gəlmişlər.

Əməkdaşlıq protokoluna görə, tərəflər Azərbaycan, Yunanıstan və Türkiyənin biznes mühitini Azərbaycan və Yunanıstanın müxtəlif sektorlarındakı investisiya, ticarət və birgə əməkdaşlıq imkanları barədə yenilənmiş və faydalı məlumatla təmin edəcəklər.

Tərəflər Yunanıstan, Azərbaycan və Türkiyədən olan iş adamlarının və biznes heyətlərinin tələb və istəklərinə uyğun mövzularda görüşlərini təşkil edəcəklər.

Eyni zamanda tərəflər seminar və konfranslar keçirmək və ya bu kimi tədbirləri dəstəkləməklə hər iki ölkənin biznes cəmiyyətini iqtisadiyyat və yerli biznes mühitindəki inkişaf və meyllər barədə məlumatlandıracaqlar.

Bundan başqa, Yunanıstan, Azərbaycan və Türkiyədən olan şirkətlərin adıçəkilən ölkələrdə qarşılaşdıqları maneələr, əngəllərlə bağlı məsələ qaldırılması; hökümət və hakimiyyət strukturlarında lobbiçilik fəaliyyəti həyata keçirmək də əməkdaşlıq protokoluna daxil edilən maddələrdən biridir. Tərəflər birliklərinə daxil olan üzv şirkətlərə təklif etdikləri xidmətlərlə bağlı peşəkar səviyyədə təcrübə mübadiləsi həyata keçirmək barədə də razılığa gəlmişlər.

ATİB və SEV Qara dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyi (UBCCE) çərçivəsində sıx əməkdaşlığı davam etdirmək, beləliklə Qara dəniz və Xəzər dənizi bazarına iqtisadi inteqrasiyanı gücləndirmək, bölgəyə ticarət və investisiya axınının gücləndirilməsinə töhvə vermək barədə razılığa gəldilər.

Protokolu ATİB tərəfindən İdarə Heyətinin sədri Ahmet Erentok, SEV tərəfindən isə Direktorlar Şurasının sədr müavini və Beynəlxalq Əlaqələr üzrə məsul şəxs Atanase Lavidas imzalamışdır.

Nəzərinizə çatdıraq ki, Yunanıstan Sahibkarlar Federasiyası (SEV) 2009-2011-ci illər üçün UBCCE sədrliyini icra edir. ATİB (Azərbaycan Türkiyə İş Adamları Birliyi) növbəti iki il üçün UBCCE-nin I vitse-prezidentidir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**